Sosial, mədəni və humanitar məsələlər komissiyası

Hesabat məruzəsi

COM/SCHA/REP/002/FINAL

**Yeddinci iclas**
**Ankara, 16 may 2019-cu il**

# "BMT-NİN DAYANIQLI İNKİŞAF HƏDƏFLƏRİ ÇƏRÇİVƏSİNDƏ GENDER MƏSƏLƏLƏRİ. TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ MÜASİR AİLƏLƏRİN MƏDƏNİ KİMLİYİ" (qanunvericilikdə perspektivlər)

## GİRİŞ

1. BMTİP-nin Strateji Planında olduğu kimi, Davamlı İnkişaf məqsədlərindən biri (DİM) gender bərabərliyinə həsr edilmişdir, lakin bu məsələ digər DİM-lər arasında mübahisəli məsələ kimi inteqrasiya olunur: "Gender bərabərliyi və qadın və qızların hüquqlarının gücləndirilməsi (DİM-5) bütün DİM və hədəflər arasında irəliləyişə mühüm töhfə verəcəkdir. Qadınlar və qızlar keyfiyyətli təhsil, iqtisadi resurslar və siyasi iştiraklarda bərabər imkanlardan istifadə etməli, həm də məşğulluq, liderlik və qərarlar qəbul etmək üçün bütün səviyyələrdə kişilərlə bərabər imkanlara malik olmalıdırlar".
2. Beynəlxalq təcrübə göstərir ki, gender münasibətləri modelləri ailənin funksional sabitliyi səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Gender bərabərliyi səviyyəsi nə qədər yüksəkdirsə, ailə üzvlərinin daxili, iqtisadi, mənəvi, təhsil, müdafiə və digər vacib funksiyalarının yerinə yetirilməsində məsuliyyət, paritet və effektivlik o qədər çoxdur.
3. Xarici ölkələrin inkişafının təhlili göstərir ki, dünyada ailə və gender siyasəti sahəsində vahid bir universal model yoxdur. Hər bir ölkə öz ailə və gender siyasətini hökumət, milli xüsusiyyətlər və mədəniyyət sisteminin nəzərə alınması ilə formalaşdırır.
4. Müasir ailənin mədəni şəxsiyyəti (TÜRKPA üzv ölkələri daxil olmaqla) iqtisadiyyat, mədəniyyət, gender sosiologiyası, məşğulluq, səhiyyə, davranış, sosial-tarixi stereotiplər, uşaq təhsili, din və bir çox digər parametrlər toplusudur, hansı ki, bu parametrlər vasitəsilə bir ailə qlobal kontekstdə müəyyən cəmiyyətin üzvü kimi tanınır.

Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

Tarixi və geosiyasi cəhətdən Türkdilli cəmiyyətlər Avropa və Asiya arasında yerləşmiş, Roma İmperiyası, Ərəblər, Rusiya, Çin, İranın təsirinə məruz qalmış, mədəni şəxsiyyətləri çoxmədəniyyətli tarixi irs ilə formalaşmışdır.

5. Bu hesabatın məqsədi TÜRKPA üzv ölkələri arasında bu məsələlərlə bağlı regional qanunvericiliyin prioritetlərini və milli qanunvericilik sistemləri də daxil olmaqla, BMT-nin Tərəfdaşlıq Proqramı çərçivəsində TÜRKPA ölkələrinin müasir ailəsindəki gender əlaqələrinin mədəni modellərini qiymətləndirməkdir

## I. GENDER BƏRABƏRLİYİ

6. TÜRKPA üzvü olan dövlətlərin (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə) ən azı sənədlərində dövlət ailə siyasəti aşağıdakı əsas prinsiplərə əsaslanır: a) hər bir ailənin sabit iqtisadiyyatı; b) ər-arvad arasında tərəfdaşlıqda harmoniyanın təşviq edilməsi və dəstəklənməsi; c) ailənin sağlamlığı; d) mədəni şəxsiyyətlərin və ana dilinin saxlanması; e) uşaqlar üçün sağlamlıq və təhsil. Şəxsi tərəfdaşlıqların uğurlu qarşılıqlı əlaqəsi və ailənin saxlanılması, həmçinin Türk dünyasının mədəni irsinin zənginliyi üçün balanslaşdırılmış məşğulluq sahəsinə şəraitin yaradılması vacibdir.

7. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının statistikasına görə, bura daxil olan ölkələrdə ailəyə dəstək verilməsi məqsədilə dövlət xərcləri birbaşa ödənişlər (müavinətlər), maliyyə xidmətləri və ailələrə vergi yükünün azaldılması yolu ilə həyata keçirilir. Sosial modernləşmə prosesindən keçmiş ölkələrin təcrübəsi onun həyata keçirilməsinin müvəffəqiyyəti cəmiyyətdə və ailədə gender bərabərliyinə nail olmaqla birbaşa əlaqəli olduğunu göstərir.

8. Dünya təcrübəsinə əsasən gender bərabərliyinə dair dörd yanaşma var: 1) "Gender inteqrasiyası" - sosial-iqtisadi həyatın, siyasi, fərdi, vətəndaş cəmiyyətinin və s. bütün aspektlərini əhatə edir (Danimarka, İslandiya, Norveç, İsveç və Finlandiya, yəni, Skandinaviya modeli). Gender bərabərliyi prinsipinin birləşdirilməsi bərabərliyə dair müəyyən fikirlərin bütün sahələrdə siyasətin bir hissəsi olmasını nəzərdə tutur. Gender bərabərliyi güc və resursların ədalətli bölüşdürülməsini, həmçinin kişilərin və qadınların fəaliyyət və ehtiyaclarını bərabər qiymətləndirməyi nəzərdə tutur. Praktikada bu o deməkdir ki, qadınların hüquqları, şəraiti və sosial statusu kişilərin müvafiq hüquqlarına, şərtlərinə və statusuna nisbətdə nəzərə alınmalıdır. 2) Genderdən kənar bərabərlik modeli balansı bərpa etmək üçün lazım olan (Böyük Britaniya) digər kateqoriyaları (yaş, qabiliyyət, milliyyət və s.) əhatə edən bərabərsizliyin genderdən kənara çıxması anıayışına əsaslanır. 3) "ittifaq təşviqləri" modeli - həm "alt" tələblərə (qadın təşkilatlarına və icmalara), həm də "üst" beynəlxalq statuslara, maliyyə və investisiyalara cavab olaraq ortaya çıxan yeni bir modeldir.

Bu model dövlət və vətəndaş cəmiyyəti arasında sosial tərəfdaşlıq yolu ilə gender bərabərliyinə nail olmaq və bu prosesdə qeyri-hökumət təşkilatlarının geniş iştiraknın daxil eilməsini əhatə edir. 4) "Mübadilə modeli" qadınlara qarşı müsbət hərəkət ənənələrinə (qadınlara hər hansı dəstək) dair siyasətə əsaslanan Avropa ölkələrinə (Fransa, Belçika) xarakterikdir. Bu modelə - Fransa, Belçika və İspaniya kimi 3 ölkə aiddir. Bu ölkələrdə təhsil və uşaqların yetişdirilməsi ilə bağlı qadınlara bütün xidmətlər pulsuzdur. Avropa təşkilatlarına gəldikdə görə bilərik ki, Belçika Sosial Müdafiə Departamentinin katibi vəzifəsini iki məqsədlə təqdim etdi: kişilər və qadınlar arasında bərabər imkanlar yaratmaq, həmçinin hökumətin bu məsələlərlə bağlı məsləhətləşmələr aparması. Məsələn, Fransada qadınlar və kişilər arasında bərabərlik üçün Ali Şura mövcuddur.

## II. TÜRKPA ÜZV ÖLKƏLƏRINDƏ MÜASİR AİLƏLƏRİN MƏDƏNİ KİMLİYİ" (qanunvericilikdə perspektivlər)

### AZƏRBAYCAN

9. Azərbaycanda son 100 ildə qadın hüquqlarının qorunmasında mühüm nəticələr əldə etmişdir. Bu nailiyyətlər həmçinin BMT-nin Dayanıqlı İnkişaf Hədəflərini də özündə əhatə etmişdirşdir.
10. 1918-ci ildə yaranan Azərbaycan Demokratik Respublikası insanların gender bərabərliyi hüquqlarını təmin etmişdir. Beləliklə, Azərbaycan Şərqdə qadınlara səs vermək və seçilmək hüququnu verən ilk ölkə olmuşdur. Azərbaycan qadını ailə bütövlüyünün qorunmasında xüsusi yer tutur. Hər kəs həyat və mövcudluğuna görə anaya borcludur. Ana ailənin təməlidir.Azərbaycan ailələrində dil faktoru. Azərbaycan xalqı öz mədəniyyəti və dilinə yüksək hörmət və ehtiramla yanaşan bir xalqdır. Əcnəbi dillərində (ingilis, rus və s.) təhsil almasına baxmayaraq, hər bir ölkə vətəndaşı azərbaycan dilini yaxşı bilir və danışır.
11. Azərbaycan ailə ənənələri sadiqlik, qarşılıqlı sevgi, dürüstlük, yaşlılara və valideynlərə hörmət kimi zəngin və çoxtərəfli xüsusiyyətlərə malikdir. Azərbaycan xalqı unikal ailə nümunəsinə malikdir, eyni zamanda Azərbaycan ailəsində valideyn-uşaq münasibətləri, böyüklərə hörmət kimi fundamental milli dəyərlər qədim zamanlardan günümüzə qədər qorunub saxlanılmışdır.
12. Azərbaycan ailəsi milli-mədəni dəyərlərin və şəxsiyyətin formalaşdığı cəmiyyətin əsas göstəricisidir. Tarixən, Azərbaycan ailəsi milli inkişafda insanların yüksək mənəvi dəyərlərinin qorunması, genofondun daşıyıcısı kimi mühüm rol oynamışdır.
13. Bu gün Azərbaycan qadınları həyatın bütün sahələrində fəallıqla təmsil edilirlər: siyasət, iqtisadiyyat, diplomatiya, hərbi, mədəni, humanitar, istehsalat.

14. **İslahatlar.** 2017-ci ilin fevral ayında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin qərarı ilə birinci vitse-prezident Mehriban xanım Əliyevanın təyin edilməsi son illərdə Azərbaycanda bütün sahələrdə, həmçinin gender bərabərliyi sahəsində həyata keçirilən uğurlu islahatların məntiqi davamıdır.
15. 2012-ci ildə qadın sahibkarların sayı 71.000 təşkil edirdisə, 1 yanvar 2018 ilin məlumatlarına əsasən 174.000 gədər artmışdı. Beləliklə ölkədə qadın sahibkarlığın faizi 17.4 – 28 % gədər artmışdı. Bu artım tendensiyası hal-hazırda artmaqda davam edir.
16. 2004-cü ildə qadınlar bələdiyyə sektorunda 4% seçilmişdirsə, 2014-cü ildə 35% gədər artmışdı. Onlardan 28% bələdiyyə yerliözünüidarəetmə strukturunda sədr vəzifəsində 28% təşkil edir.
17. Azərbaycan Respublikasının Milli Məclisinin 20 üzvü qadındır, onlar parlamentin 17% təşkil edirlər.
18. 2012-ci ildə yerli icra hakimiyyəti orqanlarında yerli icra hakiminin müavini vəzifəsində 26 qadın işləyirdisə, artıq 2018-ci ildə 1 nəfər icra hakimiyyətini başçısı və 78 icra hakimiyyətini başçısının müavini qadınlar təyin edilmişdi.
19. **Qanunvericilik.** Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə əsasən hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.
20. 2006-ci ildə Gender bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdi. Qanunda gender, gender bərabərliyi, bərabər imkanlar, cinsi mənsubiyyətə görə ayrı-seçkilik, seksual qısnama anlayışlar qəbul edilmişdi.
21. "Ailə təsərrüfatı haqqında", "Uşaq hüquqları haqqında", "Əlil uşaqlara və onların sağlamlığına dair məhdudiyyətlərin qarşısının alınması, onların bərpası və sosial müdafiəsi haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Körpə və gənclərin qidalanması haqqında" "Uşaqlar üçün məcburi dispanser haqqında" Qanunlar, "BMT-nin transmilli mütəşəkkil cinayətkarlığı haqqında" Konvensiyası, "İnsan, xüsusilə qadın və uşaq alverinin qarşısının alınması və cəzalandırılması haqqında", "Miqrantların ərazi, dəniz və hava vasitəsi ilə qanunsuz keçməsinə qarşı protokolların təsdiq edilməsi haqqında", "evli qadının vətəndaşlığı haqqında", "Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarının tənzimlənməsi haqqında", "Yaşlılar üçün sosial xidmətlər haqqında",

"Nigahdan kənar doğulan uşaqların hüquqi statusu haqqında" Qanunlar qəbul edilmişdir.

22. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsinə əsasən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.
23. Cinayət Məcəlləsinin 176-1-ci maddəsinə əsasən qadını nikaha daxil olmağa məcbur etmə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
24. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdi. Qanuna əsasən milli qanunverilikdə yeni anlayışlar və institutlar yaradılmışdı: məişət zorakılığı, məişət zorakılığından zərər çəkmiş şəxs, məişət zəminində fiziki zorakılıq, məişət zəminində psixi zorakılıq, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi, məişət zəminində cinsi zorakılıq, məişət zorakılığının qarşısının alınması, yardım mərkəzləri, mühafizə orderi. Hal-hazırda ölkədə Bakı, Gəncə, Sumqayıt şəhərlərində QHT-rin 10 sığınacaq akkreditasiyadan keçib və dövlət büdcəsinin dəstəyi əsasında fəaliyyət göstərir.
25. Nazirlər Kabinetinin "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması qaydaları"nın 1-ci maddəsinin 1.2-ci bəndinə əsasən, Məlumat bankı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən yaradılır və aparılır. 1.3-cü bəndə əsasən, Dövlət orqanları və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzləri məişət zorakılığı halları ilə bağlı məlumatları Komitəyə təqdim etməlidirlər. Bu məqsədlə, 4 oktyabr 2017-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə məişət zorakılığına dair elektron məlumat bankının təqdimatı keçirilmişdir. 11 oktyabr tarixində isə "Azərbaycanda Gender Əsaslı Zorakılığa qarşı Mübarizə" layihəsi çərçivəsində məişət zorakılığı ilə bağlı elektron məlumat bankının istifadəsi üzrə təlim keçirilib. Təlimdə məlumat bankının istifadəsinə dair məsul şəxslər (nazirliklər, Bakı şəhəri üzrə icra hakimiyyətləri, Sumqayıt şəhər İH, Abşeron rayon İH, yardım mərkəzləri, Komitə əməkdaşları) iştirak edib. 22 fevral 2018-ci il tarixində Şəmkir rayonunda Daşkəsən, Ağstafa, Tovuz, Qazax, Şəmkir, Gədəbəy rayon icra hakimiyyətlərindən olan məsul şəxslər üçün məişət zorakılığı ilə bağlı elektron məlumat bankının istifadəsi üzrə təlim keçirilib. Məlumat Bankında yer alan "Müraciət forumu"nda zərərçəkmiş şəxs və məişət zorakılığını törətmiş şəxsin adı, soyadı, cinsi, doğum tarixi, milliyəti, ünvanı,

məşğulluğu, peşəsi, təhsili, ailə vəziyyəti kimi şəxsi məlumatlar daxil edilir. Bundan başqa, məişət zorakılığı haqqında faktı məlumat bankına daxil edən orqan, müraciət edən şəxs, zorakılığın forması, təkrar məruz qalması və araşdırmanın nəticəsi haqqında məlumatlar yerləşdirilir. Məlumat üçün bildiririk ki, məlumat bankı üzrə təyin edilmiş məsul şəxslər, hüquq-mühafizə orqanları, vəkillər, yardım məzkəzləri, ədliyyə sistemi, qeyri-hökumət təşkilatları və digər şəxslər üçün məişət zorakılığı ilə bağlı elektron məlumat bankının təqdimatı və istifadəsinə həsr olunmuş təlimlər keçirilir.

26. Azərbaycan 1990-cı illərdə ailənin möhkəmləndirilməsi, qadınların və uşaqların hüquqlarının müdafiəsi üzrə beynəlxalq konvensiyalara qoşulmuş və müvafiq qanunlar qəbul etmişdir. Həmçinin, Azərbaycan Beynəlxalq Əmək Təşkilatın (BƏT) "Qadın və kişilərə qarşı bərabər imkanlar və müalicə - ailə məsuliyyətli işçilər" adlı 156 saylı Tövsiyəsi, BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütünformalarının ləğvi haqqında" "Uşaqların hüquqlarının müdafiəsi haqqında", "Ölkələrarası övladlığa götürmə və əməkdaşlıq ilə bağlı uşaqların müdafiəsi haqqında", "Kənd təsərrüfatında çalışan uşaqların minimum yaş həddi haqqında","Uşaq əməyinin pis formalarının qadağan edilməsi və aradan qaldırılması istiqamətində görülən tədbirlər haqqında" Konvensiyalar və digər beynəlxalq normativ–hüquqi aktlara qoşulmuşdur.

27. Həmçinin, Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailənin yaradılması və möhkəmləndirilməsi ilə bağlı standartları, ailə üzvlərinin hüquq və vəzifələri, bu sahədə dövlət orqanlarının məsuliyyətləri, habelə mülki status aktlarının dövlət qeydiyyatı qaydaları, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı qaydaları, insan və vətəndaş hüquqlarını müəyyən edir.

28. 2011-ci il tarixindən etibarən gender bərabərliyi prinsipini rəhbər tutaraq Ailə Məcəlləsində qızlar nigah bağlamaq üçün icazə verilən yaş həddi 17-dən 18-ə yüksəldilmişdir.

29. 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD saylı "Azərbaycan Respublikasının Ailə Məcəlləsinə düzəlişlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, evlənmək istəyən şəxslərin məcburi tibbi müayinəsi tələbi 1 yanvar 2015-ci ildən qüvvəyə minmişdir. Ailə qurmaq istəyən şəxslərin tibbi müayinəsi onların tələbi ilə yaşadığı ünvan üzrə qeydiyyatdan keçmiş tibb müəssisələrində pulsuz həyata keçirilir.

30. **İnstitutlar.** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Prezidentinin 6 fevral 2006-cı il tarixli Sərəncamı ilə yaradılıb və həmin Sərəncamla Hicran Hüseynova Komitə sədri təyin edilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaqlarla iş sahəsinə dövlət siyasətini həyata keçirən mərkəzi icra orqanıdır. Azərbaycan Gender İnformasiya Mərkəzi (AGİM) 2002-ci il tarixində Açıq Cəmiyyət Fondu tərəfindən tanılmışdır. AGİM bir neçə qadın təşkilatından ibarətdir:

Müasir Sosial Processlərin Tədqiqat Mərkəzi; Yaradıcı Qadınlar Birliyi və Azərbaycan Təşkilati və Texniki İnkişaf Assosiasiyası, həm; Mingəçevirdə Şəms Qadınlar və Gənclər Mərkəzi və Xudat Gənclər Proqramı İnkişafı Mərkəzi.

31. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2018-ci ildə Neftçala rayonu Qadın Resurs Mərkəzində qadın biznes inkubatorunun yaradılması və iqtisadi zorakılığın qarşısının alınmasına həsr olunmuş tədbir həyata keçirmişdir. Tədbirin məqsədi məişət zorakılığının bir növü olan iqtisadi zorakılığının qarşısının alınması, regionlarda biznesə başlayan qadınların qarşılaşdıqları problemlər və onların aradan qaldırılması, yeni biznesə başlıyan qadınların maliyyə savadlılığının artırılması, biznes planlarının qurulması, mövcüd qadın biznes subyektlərinin gücləndiriməsi, eyni zamanda, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" üzrə Tədbirlər Planının 4.4 bəndinin (Qadın sahibkarlığının inkişaf etdirilməsi) 4.4.3 yarımbəndinin (Qadın biznesi-inkubatorlarının yaradılması) 4-cü hissəsinin (Qadın biznesi-inkubatorlarının yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi) icrasını təmin etməkdir.

32. Ölkədə fəaliyyət göstərən çox saylı QHT-lərdən 300-ə yaxını xüsusilə cəmiyyətdə gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərir.

## QAZAXISTAN

33. 2018-ci ilin sonunda Qazaxıstan 149 ölkə arasında Dünya İqtisadi Forumunun (bundan sonra DİF) Gender Bərabərsizliyi İndeksində 60-cı yeri tutmuşdur.

"İqtisadi iştirak və qadınlar üçün imkanlar" göstəricisinə əsasən ölkə "təhsil səviyyəsi" üzrə 30-cu, "sağlamlıq indeksi" üzrə 42-ci, "siyasi irəliləyişə" görə isə - 94-cü yerləri tutmuşdur. Bu gün dövlətin ali qanunvericilik orqanı hesab olunan Parlamentin tərkibinin 22%-ni 34 qadın millət vəkili təşkil edir. Ölkənin iqtisadi korporativ sektorunun maliyyə sahəsindəki qadınların rəhbər mövqeyində təmsil olunması 30% -dən çox olmuşdur.

34. Tarixən Qazaxıstan köçəri tayfalarında qadınların vəziyyəti və rolu əsasən o dövrdəki iqtisadiyyatın xüsusiyyəti və qadınların həyatdakı yerinə dair köçəri fikirlər ilə müəyyən edilmişdir. Qazaxıstan xalqının əfsanələri və nağılları Böyük Cöldə bir qadının valideyn və Vətənin cəsur müdafiəçisi, eləcə də ölkənin lideri obrazlarını qoruyub saxlamışdır. Çöl təbii müdafiəyə malik olmayan bir yerdir. Çöl şəraitində yaşayıb sağ qalmaq şərti fərdə hörmətlə yanaşı ictimai təşkilatçılıq, əməkdaşlıq və komanda işi tələb edir. Qazax cəmiyyətində bu günəqədər sıx ailə və klan münasibətləri arasında güclü bir əlaqə mövcuddur. Köçəri tayfalarındakı qadınlar heç zaman çılpag gəzməz və tənha yaşamazdı. O dövrdə qadınlar şura və məclislərdə iştirak edər, müsabiqələrə (aitys) qatılar, mahnı oxuyar və oyunlar oynayardı. Qazaxıstanda hər zaman ailənin başçısı kişi hesab edilmişdir. Kişinin rolu "müdafiəçi" və "evə çörək aparan" olaraq təyin olunmuşdur. Eyni zamanda, qadın

ev təsərrüfatı ilə yanaşı uşaqlar üçün müəllim, həyat yoldaşı üçün məsləhətçi və dost hesab edilirdi. Qazax cəmiyyəti monoqam bir cəmiyyət hesab edilir. Tarixən poliqamiyanın mövcud olduğu bir dövrdə belə bir imkandan yalnız zəngin insanlar istifadə edə bilərdi. (Mendikulova, G.Nadejuk, E, 2017. 'Təhsil: Kolonial Qazaxıstan, S.Jozef (Ed.) Qadın Ensiklopediyası və İslam Mədəniyyəti).

35.Qazaxıstanda müasir dövrdə ailə institutu transformasiya olunur. Folklor adət-ənənələr və ritualların bir çox elementləri dəyişdirilmiş və sadələşdirilmiş, bəziləri isə tamamilə yox olmuşdur. Alimlərin araşdırmalarına görə əsas dəyişikliklər ailə üzvləri arasındakı münasibərdən başlamışdır. Yəni ailədə hər kəsdən asılı olan qəlinin mövqeyi davranış normalarından qənar bir vəziyyət yaradırdı. Müasir Qazax ailəsinin stereotipi artıq qayınata və xüsusilə qayınana (qaiyn-ene) tərəfindən ev təsərrüfatının idarə edilməsi, uşaqların yetişdirilməsi mümkün olan dəstəyin verilməsi və gəlinin karyerasının işkişafı üçüm normal şəraitin yaradlmasında əks olunmuşdur. Müasir Qazax ailəsində ər-arvad arasında qarşılıqlı sevgi, hörmət, yardım və dəstək kimi amillər əsas hesab edilir. Evlilik üçün əsas şərt könüllü şəkildə seçim, qarşılıqlı duyğu və gənclər tərəfindən problemin müstəqil şəkildə həll olunmasından ibarətdir. Kalım anlayışı. Keçmişdən bu günədək gəlinə cehiz vermək adəti qorunub saxlanılmışdır. Lakin müasir dövrdə cehiz cütlüyün maraqlarına cavab verən, eyni zamanda onların birgə həyatının tərkib hissəsi hesab edilən maddi və iqtisadi dəstəkdir.

36.Qazaxıstan Davamlı İnkişaf Məqsədlərinə dəstək verərək, BMT-nin sənədinin "Qazaxıstan-2050" Strategiyası, "Beş İnstitusional islahatın həyata keçirilməsi üçün konkret addımlar" Milli Planı, Dövlət başçısı tərəfindən irəli sürülmüş beş sosial təşəbbüslər və "Ruhani Janqıru” Proqramında əks olunan ölkənin prioritet və məqsədlərinə uyğun olması faktını əsas tutmuşdur.

37.28 iyun 2018-ci il tarixində dövlət başçısı - Birinci Prezident Nursultan Nazarbayev "Ruhani Janqıru" proqramında ənənə və dəyərlərin rolunu vurğulamışdır. Bu proqrama əsasən, müasir suveren Qazaxıstan milli dirçəliş dövrü yaşayır. Qazaxıstanda yetmiş illik sovet dövrünün ənənələri yəni "keçmiş qalıqlar"ilə mübarizə aparmışdılar. Ancaq heç bir ictimai-siyasi proseslər Qazax xalqının etnik fərdiliyi və milli mənsubiyyətinə təsir göstərə bilmədi. Bu bir ölkənin dini və tarixinə, milli və mədəni köklərinə müsbət çağırış kimi nikah və ailə sahəsində boşanma, ailə quranların sayının azalması, demoqrafik göstəricilərin aşağı düşməsi və s. kimi müasir cəmiyyətin ən vacib problemlərinin həllinə xidmət edə bilər.

38.Əsasən yeddinci nəsillə məhdudlaşdırılmış eqzogamiya faktoru Qazaxıstanda ailələrin genetikasına yaxşı təsir göstərmişdir. Ümumiyyətlə, əsrlər boyu yaşanan təcrübədən və xalqın ənənələrini ən yaxşı şəkildə mənimsəyən alimin fikirlərinə əsasən, Qazax xalqının müasir ailə həyatı inqilabdan öncəki dövrdən keyfiyyətcə fərqlənir. Qazax xalqının sosial-iqtisadi, sosial-siyasi və mədəni həyatında başlıca dəyişiklikləri aydın şəkildə əks etdirir. Bu Qazax kişi və qadınlarının düşüncə tərzini və onlar arasındakı əlaqələri əhəmiyyətli dərəcədə dəyişmişdir.

39.Qanunvericilik. Qazaxıstan Konstitusiyası, ratifikasiya edilmiş beynəlxalq sənədlər (“Qadınlara və uşaqlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiya), "Evlilik və ailə haqqında" və "Qazaxıstan Respublikasının vətəndaşlarının gender bərabərliyi haqqında" Qanunlar qüvvəyə minmişdir. 2005-ci

ildə Qazaxıstan Respublikasının Gender Siyasəti Konsepsiyası qəbul edilmiş, Qazaxıstan Respublikası Prezidentinin fərmanı ilə 2006-2016-cı illərdə Gender bərabərliyinin təmin edilməsi üzrə Milli Strategiya təsdiq edilmişdir. Yeni sənəd ailə dəyərlərinin qorunması və inkişafı, yüksək keyfiyyətli nəslin yetişdirilməsi, ailə mədəniyyətinin inkişafı və digər məsələlərdən ibarət cəmiyyətin mühüm bir hissəsi olan ailə siyasətinə yönəlmişdir.

40. Qazaxıstan qadın hüquqları və gender bərabərliyi sahəsində aşağıdakı əsas beynəlxalq sənədlərə qoşulmuşdur: Pekin Qadınlarının Təkmilləşdirilməsi üzrə Tərəfdaşlıq Platforması (1995), BMT-nin Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının ləğv edilməsi haqqında Konvensiyası (1998), Qadın Siyasətçilərin hüquqlarına dair Konvensiya (2000), Evli Qadınların Vətəndaşlığına dair Konvensiya (2000), İLO üzrə 151 saylı Kişi və Qadınların bərabər iş dəyəri üçün mükafatlandırma Konvensiyası (2000), Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair Protokol(2001). Dünyanın bir çox ölkəsi tərəfindən qəbul edilmiş Birləşmiş Millətlər Təşkilatının Minilliyin Bəyannaməsində (2000), gender bərabərliyinin təşviqi, qadınların gücləndirilməsi insan inkişafının əsas məqsədləri kimi müəyyən edilmişdir.

41. Mövcud strateji və proqram sənədləri:

- 2016 - 2019-cu illər üçün Qazaxıstan Respublikası Təhsil və Elminin İnkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında "2016-cı il 1 mart tarixli 205 saylı Qazaxıstan Respublikası Prezidentinin Fərmanı.
- Qazaxıstan Respublikasının 2016 - 2019-cu illər üçün "Səhiyyə" Dövlət Proqramının təsdiq edilməsi haqqında "Qazaxıstan Respublikası Prezidentinin 2016-cı il 15 yanvar tarixli 176 nömrəli Sərəncamı.
- Qazaxıstan Respublikası Prezidentinin 2013-cü il 24 sentyabr tarixli 648 nömrəli "2013-2017-ci illər üçün Qazaxıstanda dini ekstremizm və terrorizmlə mübarizə üzrə Dövlət Proqramı haqqında" Fərmanı.
- Qazaxıstan Respublikası Prezidentinin 2014-cü il 1 avqust tarixli 874 nömrəli "Qazaxıstan Respublikasının 2015-2019-cı illər üçün sənaye-innovasiya inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Fərmanı.
- Qazaxıstan Respublikası Prezidentinin 2011-ci il 29 iyun tarixli 110 nömrəli "2011-2020-cu illər üçün Qazaxıstan Respublikasında Dillərin İnkişaf və İstifadəsi üzrə Dövlət Proqramı haqqında" Fərmanı.

42. **Gender bərabərliyi və ailə mühafizəsi ilə bağlı mövcud milli qanunvericilik:**

Qazaxıstan Respublikasının Konstitusiyası.

2) Qazaxıstan Respublikasının "Nigahın bağlanılması və ailə haqqında" Qanunu.

3) Qazaxıstan Respublikasının Əmək Məcəlləsi.

4) Qazaxıstan Respublikasının Büdcə Məcəlləsi.

5) "Vətəndaşların sağlamlığı və sağlamlıq sistemi haqqında" Qazaxıstan Respublikasının Məcəlləsi.

6) "Kişi və qadınların bərabər hüquqlarının və imkanlarının dövlət təminatı haqqında" Qazaxıstan Respublikasının Qanunu.

7) "Məişət zorakılığının qarşısının alınması haqqında" Qazaxıstan Respublikasının Qanunu.

8) Qazaxıstan Respublikasının "Məişət zorakılığına qarşı mübarizə haqqında Qazaxıstan Respublikasının bəzi qanunvericilik aktlarına düzəlişlər və əlavələr haqqında" Qanunu.

9) "Minimum sosial standartlar və onların təminatları haqqında" Qazaxıstan Respublikasının Qanunu.

10) "Təhsil haqqında" Qazaxıstan Respublikasının Qanunu.

11) "Dövlət təhsil toplusu haqqında" Qazaxıstan Respublikasının Qanunu.

12) "Dövlət gənclik siyasəti haqqında" Qazaxıstan Respublikasının Qanunu.

13) Qazaxıstan Respublikasının "Qazaxıstan Respublikasında Uşaq Hüquqları haqqında" Qanunu.

14) "Bədən tərbiyəsi və idman haqqında" Qazaxıstan Respublikasının Qanunu.

15) "Mədəniyyət haqqında" Qazaxıstan Respublikasının Qanunu.

16) "Məşğulluq haqqında" Qazaxıstan Respublikasının Qanunu.

17) Qazaxıstan Respublikasının "Qazaxıstan Respublikasında pensiya təminatı haqqında" qanunu.

18) Qazaxıstan Respublikasının "Əlilliyin Dövlət Sosial Müdafiəsi haqqında, Zərərçəkənlərin itkisi və yaş haqqında" Qanunu.

19) Qazaxıstan Respublikasının "Qazaxıstan Respublikasında xüsusi dövlət ehtiyatı haqqında" Qanunu.

20) "Uşaqlı ailələrə dövlət yardımı haqqında" Qazaxıstan Respublikasının Qanunu.

21) "Dövlət məqsədli sosial yardım haqqında" Qazaxıstan Respublikasının Qanunu.

22) "Məcburi sosial sığorta haqqında" Qazaxıstan Respublikasının Qanunu.

23) "Xüsusi Sosial Xidmətlər haqqında" Qazaxıstan Respublikasının Qanunu.

24) "Qazaxıstan Respublikasında Əlillərə sosial müdafiəsi haqqında" Qazaxıstan Respublikasının Qanunu.

25) "Əlil uşaqlara sosial və tibbi-pedaqoji dəstək haqqında" Qazaxıstan Respublikasının Qanunu.

43.Hökumət tərəfindən ana və uşaqlara dəstək vermək məqsədilə dövlət proqramları həyata keçirilir.

44. Qazaxıstan Respublikasında 2030-cu ilədək Ailə və Gender Siyasəti Konsepsiyasının yekunlaşması üzrə aktiv işlər aparılacaqdır. Qazaxıstan yanaşması ailənin özünü kifayət qədər inkişaf etdirmə imkanları və ailə münasibətlərindəki genetik ekvivalentlikdə yaşayış şəraitinin mövcud imkanlarının genişləndirilməsi vasitəsi olaraq dövlətin yaradılmasını nəzərdə tutur. Əmək əlaqələri sahəsində zəruri şərait yalnız ictimai səviyyədə deyil, həm də özəl ailə içərisində kişi və qadın arasında bərabər münasibətlərin yaradılmasıdır.

45. Lakin Qazax ailəsində gender stereotipi kişilərin imtiyazları ilə təmin olunur. Bununla yanaşı, mövcud vəziyyətdə hər iki valideyn öz uşaqlarının yetişməsi üçün məsuliyyət daşıyır. Və eyni zamanda, mədəniyyət nümunələr, eləcə də etnik

mədəniyyətlərin identifikasiyasını əhatə edən mədəni ənənələr və mənəvi dəyərlərin rifahının qorunması vacibdir. Beləliklə, ailə gender bərabərliyi və maliyyə rifah, mədəni kimliyin qorunub saxlanılmasında məsuliyyət daşıyır. Yalnız qadınları deyil, kişiləri də (xüsusilə tək böyüyən kişi uşaqlarını) dəstəkləmək vacibdir.

46. Qazax ailəsində dil. Qazax ailələrindəki müasir analar uşaqları ilə hər iki dildə (Qazax və Rus dilləri) danışır. Yeni nəsilə gəlincə, vəziyyət yaxşılaşır. Hazırda gənclər Qazax, rus və ingilis dillərində danışır. Gənc Qazaxıstanlı uşaqlar və qızlar 21-ci əsrdən öncəki dövrlə fərqdə öz mədəni mənsubiyyətini daha yaxşı dərk edərək, özlərini daha rahat hiss edirlər.

47. Qazaxıstanda intihar səviyyəsi çox yüksəkdir. Vəziyyəti təhlil etmək lazımdır. Məktəb şiddətini dayandırmaq üçün ailə böyük rol oynamalıdır.

40. İnstitutlar. 1995-ci ildə tarixi bir qərar qəbul edildi, Qazaxıstan Respublikasının Prezidenti yanında Ailə, Qadın və Demoqrafik Siyasət Şurası yaradıldı. Dövlət başçısı 1998-ci il tarixli fərmanı ilə Şuranı Qazaxıstan Respublikasının Prezidenti yanında "Ailə və Qadınlara dair Milli Komissiya" na çevirmişdir. 4 mart 1999-cu ildə komissiyanın ilk tərkibi təsdiq edilmiş, əvvəlki şuraya nisbətən hüquqlar və səlahiyyətlər əhəmiyyətli dərəcədə genişlənmişdir, 2008-ci ildə "ailə və demoqrafik siyasət" anlayışı komissiyanın adına daxil edilmişdir. İlk günlərdən etibarən Milli Komissiya bütün ictimai-siyasi və sosial-iqtisadi məsələlər üzrə dövlət orqanları ilə sıx əməkdaşlıq etmişdir.

## QIRĞIZISTAN

48. Qırğızıstan Mərkəzi Asiyada parlament demokratiyasının inkişafı, parlamentarizm prinsiplərinin qurulması kursunu əsas götürmüş ilk ölkə olmuşdur və demokratiyanın gələcək inkişafı yönündə səylər göstərir. Qırğızıstan xalqı haqlı olaraq fəxr edir ki, ölkə üçün çətin tarixi keçid dövründə regionda qadın tərəfindən rəhbərlik edilmiş ilk və tək ölkə olmuşdur.

49. Qadınların Statusu üzrə Birləşmiş Millətlər Təşkilatı Komissiyasının 59-cu sessiyasında Qırğızıstan Respublikası post-2015 Dayanıqlı İnkişaf Hədəfləri gündəliyi və gender bərabərliyinin aparıcı inkişaf prioritetlərindən biri kimi müəyyənləşməsi üçün dəstəyini ifadə etmişdir.

50. Qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW), Pekin Fəaliyyət Platforması, Minilliyin İnkişaf Hədəfləri və Yardımın Səmərəliliyi haqqında Paris Bəyannaməsi daxil olmaqla Qırğızıstan 50-dən çox beynəlxalq razılaşmanı ratifikasiya etmişdir. Qırğızıstan gender bərabərliyini təmin edən geniş qanunvericilik bazasına malikdir. Mülki, cəza, əmək və ailə məcəllələri kişilər və qadınlar üçün bərabər hüquqlar elan edir. 2013-cü ildə Qırğızıstan Prezident Administrasiyası tərəfindən təklif olunan 2013-2017-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Yol Xəritəsini təsdiq etmişdir. Bu addımlar onun ilk uzunmüddətli innovative gender bərabərliyi strategiyası (2012-2020-ci illər) və 2012-ci il ilkin Milli Fəaliyyət Planını möhkəmləndirmişdir.

51. 2013-cü ilin fevral ayında, BMT Qadınlarının güclü dəstəyi və Mərkəzi Asiyada Preventiv Diplomatiya üçün BMT Regional Mərkəzi (UNRCCA) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) ilə əməkdaşlıq çərçivəsində

Qırğızıstan 1820, 1888, 1889, 1960, 2106 və 2122 saylı 6 dəstəkverici BMT Təhlükəsizlik Şurası qətnamələri ilə birlikdə BMT-nin qadın hüquqları üzrə öhdəlikləri silsiləsinin bir hissəsini təşkil edən BMT Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsi üzrə Milli Fəaliyyət Planı qəbul etmişdir. Bu direktiv sənədlər Qırğızıstan Respublikasında gender bərabərliyinə yeni yanaşmanı təmsil edir.

52. Qırğızıstanın Konstitusiyasında Qırğızıstan Respublikasında kişi və qadınların bərabər hüquq və azadlıqlara, onları həyata keçirmək üçün bərabər imkanlara sahib olması prinsipi əks olunmuşdur. "Qırğızıstan Respublikası Prezidenti və Qırğızıstan Respublikası Joqorku Keneşinin deputatlarının seçilməsi haqqında" Qırğızıstan Respublikası Konstitusiya Qanunu namizədlərin siyahısının müəyyənləşdirilməsi zamanı siyasi partiyanın bu kimi şərtlərə əməl etməsi normasını nəzərdə tutur: eynicinsli namizədlərin sayının 70%-dən çox olmaması ilə, eyni zamanda, siyasi partiyalar tərəfindən irəli sürülmüş qadın və kişi namizədlərin siyahılarında ardıcıllıq fərqi üç vəzifəni aşmamalıdır; Qırğızıstanda bir sıra dövlət orqanlarında qadın və kişilərin iştirakının təmin edilməsi üçün qanunvericilikdə müəyyən edilmiş xüsusi tədbirlər həyata keçirilir (eynicinsli şəxslərin 70%-dən çox olmaması şərti ilə): Joqorku Keneşin deputatları, MSK, şəhər keneşlərinin deputatları, Hesablama Palatasının auditorları, Ali Məhkəmənin hakimləri, Ali Məhkəmənin Konstitusiya Palatası, Ombudsmanın (Akıykatçı) müavinləri heyətlərində. Qadınlara qarşı zorakılığın qarşısının alınması məqsədilə Qırğızıstan Respublikasında geniş tədbirlər həyata keçirilmişdir. Gender bərabərliyinə nail olunması üzrə Qırğızıstan Respublikasının Milli Fəaliyyət Planının prioritet istiqamətlərindən biri kimi qadınlara qarşı zorakılığın azaldılması üzrə iş müəyyən edilmişdir. Qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə tədbirlər görülmüşdür. "Ailədə zorakılıqdan müdafiə və mühafizə haqqında" Qırğızıstan Respublikası Qanunu ikinci redaksiyada qəbul edilmiş, müxtəlif növ zorakılığın yayılmasının miqyasının müəyyən edilməsi və görülən tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə araşdırma həyata keçirilmişdir; statistik hesabatların yeni formalarının layihələri işlənib hazırlanmışdır; KİV-də silsilə məlumat materialları çap edilmişdir; sənədli filmlər, onlarla müxtəlif radio və televiziya verilişləri hazırlanmışdır; məhkəmə sistemi, hüquq-mühafizə orqanları, yerli idarəetmə orqanları əməkdaşları və digər qrup vətəndaşlar arasında gender zorakılığı problemi üzrə maarifləndirmənin yüksəldilməsi məqsədilə bir sıra informativ tədbirlər həyata keçirilmişdir; zorakılıq qurbanları və problemin profilaktikası ilə iş üzrə bukletlər, tədris və metodiki vəsaitlər hazırlanmış və çap edilmişdir; bir neçə böhran mərkəzləri üçün yer ayrılmış və kommunal xidmətlərin ödənilməsində güzəştlər tətbiq edilmişdir; zorakılıq qurbanlarına praktik yardımlar göstərilmiş və bir çox digər tədbirlər həyata keçirilmişdir. Qırğızıstan Respublikası Joqorku Keneşinin sosial məsələlər, təhsil, elm, mədəniyyət və səhiyyə komitəsi yanında insan alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin həyata keçirilməsinə nəzarət üzrə işçi qrup fəaliyyət göstərir; İllik olaraq "İnsan alverinə qarşı mübarizə və xəbərdarlıq haqqında" Qanunun monitorinqi həyata keçirilir. Monitorinqin nəticələrinə əsasən hökumətə insan alveri qurbanlarının müəyyənləşdirilməsi və ötürülməsi mexanizmlərinin işlənib hazırlanması tapşırılmışdır.

53. Gender bərabərliyinin əhəmiyyətini dərk edərək Qırğızıstan müstəqillik illəri ərzində qadınların hüquqlarının qorunması üzrə bir çox əhəmiyyətli beynəlxalq alətləri ratifikasiya etmişdir. Ratifikasiya prosesi qadınların statusunun təkmilləşdirilməsi məqsədilə beynəlxalq qanunun milli qanunvericiliyə tətbiqi üçün əsasa çevrilmişdir.

54. Beynəlxalq və milli öhdəliklərinə uyğun olaraq Qırğızıstan müntəzəm olaraq CEDAW-ın (CEDO) həyata keçirilməsi üzrə Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə BMT Komitəsinə dövri hesabatlar təqdim edir və 2015-ci ilin fevral ayında Dördüncü Hesabatı uğurla müdafiə etmişdir.

55. 2015-2017-ci illər üçün Gender bərabərliyinə nail olunması üzrə Milli Fəaliyyət Planına Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitənin tövsiyələrinin həyata keçirilməsini əhatə edən yetkinlik yaşına çatmayanların nikahlarının qarşısının alınması tədbirləri daxil olmaqla, 70% qadın və qızlara qarşı ayrıseçkiliklə bağlı tədbirlər daxil edilmişdir. Qırğızıstan hökumətinin 19 aprel 2017-ci il tarixli 123 saylı sərəncamı ilə Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi üzrə BMT Komitəsinin Qırğızıstan Respublikasının 4-cü dövri hesabatına təklif edilmiş yekun tövsiyələrinin həyata keçirilməsi üzrə Fəaliyyət Planı təsdiq edilmişdir.

56. Gələcək inkişafa sadiq qalan Qırğızıstan Respublikası 2012-ci ildə ilk dəfə uzunmüddətli sənəd – 2020-ci ilədək Gender Bərabərliyinə Nail olunması üzrə Milli Strategiya qəbul etmişdir. Sənəddə iqtisadiyyatda qadınlar, qızlar və qadınlar üşün təhsil, ədalət və siyasi bərabərliyə çıxış kimi inkişaf prioritetləri müəyyən edilmişdir. Həmçinin sülh və təhlükəsizliyin təmin olunmasında qadınların rolunun artırılması məqsədilə Qırğızıstan Respublikası hökuməti 2013-cü ildə BMT Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsinin həyata keçirilməsi üzrə Milli Fəaliyyət Planını təsdiq etmişdir.

57. Qanunvericiliyin təkmilləşdirilməsi məsələsi ilə bağlı qeyd etmək lazımdır ki, Qırğızıstan Mərkəzi Asiya regionunda parlamentinin "Kişi və qadınlar üçün bərabər hüquqlar və bərabər imkanların dövlət təminatı haqqında" (2003-cü il və daha sonra 2008-ci ilin avqust ayında düzəliş olunmuş versiyada) və "Mühafizə və ailədə zorakılıqdan müdafiə haqqında" (2003-cü il; 2017-ci ildə yenilənmişdir) qanun qəbul etdiyi ilk ölkə olmuşdur. "Normativ hüquqi aktlar haqqında" Qırğızıstan Respublikası Qanununun 20-ci maddəsi gender ekspertizası daxil olmaqla beş növ icbari imtahanların keçirilməsini təmin edir.

58. Qanunvericilik nikahın və ailənin qorunmasına istiqamətlənmiş bir sıra tədbirləri genişləndirir, xüsusilə, nikaha daxil olma üçün şərtləri aydınlaşdırır: nikah yaşına çatma, fərdlərin könüllü qarşılıqlı razılığı və nikahın dövlət tərəfindən icbari qeydə alınması.

59. Kişi və qadınların əsas hüquq və maraqları aşağıdakı sectoral qanunlarda əksini tapmışdır: 1) Qırğızıstan Respublikasının Əmək Məcəlləsi, 2) Qırğızıstan Respublikasının Ailə Məcəlləsi, 3) Qırğızıstan Respublikasının Mülki Məcəlləsi, 4) Qırğızıstan Respublikasının Cinayət Məcəlləsi, 5) "Kişi və qadınlar üçün bərabər hüquqlar və bərabər imkanların dövlət təminatı haqqında" Qırğızıstan Respublikası Qanunu, 6) "Dövlət müavinətləri haqqında" Qırğızıstan Respublikası Qanunu, 7) "Qırğızıstan Respublikası vətəndaşlarının sağlamlığının qorunması

haqqında" Qırğızıstan Respublikası Qanunu, 8) "Mühafizə və ailədə zorakılıqdan müdafiə haqqında" Qırğızıstan Respublikası Qanunu.

60. Hazırda Qırğızıstan parlamentində 120 deputatdan yalnız 19-u qadındır ki, bu da 15.8% göstərici təşkil edir. Çağırışın başlanğıcında 26 qadın (21%) var idi, halbuki, qanuna əsasən bu kvota ən azı 30% təşkil etməlidir. Hökumətin 22 üzvündən 3-ü (13.6%) qadındır.

61. Eyni zamanda, yaxşı inkişaf etdirilmiş gender qanunvericiliyinə baxmayaraq de fakto bərabərliyə nail olunması problemli olaraq qalır. Qadınların siyasi iştirak göstəriciləri, yəni qərar qəbul etmə səviyyəsində qadınların təmsil olunması bunun bariz sübutudur.

62. Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitənin yekun tövsiyələrində əks olunmuş, qadın və kişilərin ailədə və cəmiyyətdə rolu və öhdəlikləri ilə bağlı saxlanan stereotiplər və patriarxal təsəvvürlərdən doğan narahatlığı nəzərə alaraq, həssas gender siyasəti və proqramlarının təşviqi üçün sübut bazasının yaradılması məqsədilə 2016-ci ildə Əmək və Sosial İnkişaf Nazirliyi və Milli Statistika Komitəsi BMT Qadınları, Əhali üzrə BMT Fondu və Beynəlxalq Miqrasiya Təşkilatının birgə proqramı çərçivəsində "Cəmiyyətin qavrayışında gender" Ümummilli araşdırmasının həyata keçirilməsində iştirak etmişdir. Qırğızıstan Respublikasında nikaha daxil olmaq üçün qadınların qaçırılması və erkən nikahlara qarşı mübarizənin hüquqi əsaslarının təkmilləşdirilməsi üzrə növbəti tədbirlər həyata keçirilmişdir. Belə ki, cəzaların sərtləşdirilməsinə istiqamətlənmiş 2013-cü ildə Qırğızıstan Respublikasının Cinayət Məcəlləsinin "On yeddi yaşına çatmamış şəxslə faktiki nikah əlaqəsinə daxil olmağa məcburetmə haqqında" 154-cü və "Qadınların nikaha daxil olmağa məcbur edilməsi, nikaha daxil olmaq üçün qadınların qaçırılması və nikaha daxil olmağa əngəl törədilməsi haqqında" 155-ci maddələrinə edilmiş dəyişikliklərə əlavə olaraq 17 noyabr 2016-cı ildə "Qırğızıstan Respublikasının bəzi qanunvericilik aktlarına (Qırğızıstan Respublikasının Ailə Məcəlləsi, Qırğızıstan Respublikasının Cinayət Məcəlləsinə) dəyişikliklərin edilməsi haqqında" Qırğızıstan Respublikası Qanunu qəbul edilmişdir. Digər ölkələrin təcrübələrindən göründüyü kimi, qadınların qərar qəbul etmədə və siyasətdə iştirakı qadınların hüquqlarının qorunması və gender bərabərliyi ideyalarının təşviqi sahəsinə mühüm təsir alətidir.

63. Digər ölkələrin təcrübələrindən göründüyü kimi, qadınların qərar qəbul etmədə və siyasətdə iştirakı qadınların hüquqlarının qorunması və gender bərabərliyi ideyalarının təşviqi sahəsinə mühüm təsir alətidir.

64. Evli oğlan övladların valideynləri ilə yaşaması ilə birlikdə qırğız ailəsi əsasən üç nəsildən ibarət olur. Ən kiçik oğlan övladın valideynlərin qayğısına qalması ənənəsi səbəbindən ailənin baba/nənə, valideynlər və uşaqlardan ibarət olması ümumi haldır. Fərdlər nikaha daxil olanadək valideynləri ilə yaşayır. Əsasən ucqar kəndlərdə daha böyük ailələr olmaqla, əksər ailələr üç və daha çox uşağa sahib olur. Geniş ailənin üzvləri, həmçinin yaxın qohumlarına baş çəkə və bir neçə ay onlarla yaşaya bilərlər.

65. Qırğızıstan Respublikasında körpənin göbəyinin kəsilməsi qeyd edilmir, belə ki, bu proses əsasən tibbi müəssisələrdə həyata keçirilir və körpənin 40 günü tamam olanadək mümkün hər hansı bir xəstəliyə tutulmanın qarşısının alınması, körpə və ana üçün sakitliyin təmin edilməsi üçün evə qonaqların, hətta doğmaların çağırılması qadağan olunur. Körpəyə adı baba, nənə və ya valideynlər özləri verir, eyni zamanda, heç bir təntənəli mərasim keçirilmir. Heyvanların qurban kəsilməsi yalnız Qurban bayramında baş verir. Bunu yalnız imkanlı şəxslər həyata keçirir. Toy mərasimini əsasən bütün qırğızlar öz imkanları daxilində həyata keçirir.
66. Qırğız qadınları bir çox müsəlman ölkələrinin qadınlarından daha yüksək statusa və hörmətə sahibdir. Onlar ənənəvi olaraq rəftarda və geyimdə Özbəkistan və Tacikistan kimi Mərkəzi Asiya ölkələrinin qadınlarından daha az mühafizəkardırlar. Əsasən qırğız qadınları örtük (çadra) geyinmir və qohum olmayan kişilərlə əlaqədən çəkinirlər. Onlara kişilərlə birgə ibadət etməyə icazə verilir. Qırğız qadınları müstəqil, güclü və bacarıqlı məsləhətçi hesab edilir. Əfsanəvi döyüşçü və qəhraman qırğız qadınları olmuşdur. Qırğız tarixində üç ən məşhur qadın və əfsanələr əfsanəvi fiqur olan Manasın güclü həyat yoldaşı Konikey; 19-cu əsrin sonlarında qırğızlar və ruslar arasında ilk müqavilə bağlayan qırğız lideri Kurmanjan Datka; və 16-cı əsrdə xanları məğlub edən qadın döyüşçü Jongil Misardır.
67. Nəzəri olaraq insan və qadın hüquqlarına münasibətdə Qırğızıstan mütərəqqi hüquqi çərçivəyə malikdir. Qırğızıstanda qadınların orta evlilik yaşı 22-dir və azyaşlı gəlinlər əsasən dini və qeyri-rəsmi nikahlara daxil olur. Əlavə olaraq, qanunsuz olmasına baxmayaraq qadınların qaçırılması ilə zorla nikah geniş yayılmış olaraq qalmaqdadır. Qaçırılmış və öz evlərində təcavüzə məruz qalmış qadınlar cinayəti törədəndən uzaqlaşmağa nail olarlarsa, onlar üçün yoxsulluq və iqtisadi qeyri-sabitlik ümumi hal hesab olunur. Bu səbəbdən çoxları tərk etməməyi seçir və adətən onların ailələr və hökumət rəsmiləri tərəfindən cinayətkarla barışdırılmasına cəhd edilir. Qadınların yoxsulluğu məsələsi və qadınların artan işsizliyi onların yerli və milli siyasətdə məhdud iştirakı ilə daha qabarıq vurğulanır. Bu, xüsusən, region və onun tarixini nəzərə alaraq mütərəqqi hüquqi bazaya baxmayaraq qadınların həssas vəziyyəti ilə bağlı məsələlərin praktikada siyasətçilər üçün aşağı prioritet sayılmasına gətirib çıxarır.Bax: Qırğızıstanda şəxsiyyətin qurulmasında qadınların rolu; Qadınların ideya və gözləntiləri(https://centralasien.org/2017/01/09/part-2-womens-roles-in-the-construction-of-identity-in-kyrgyzstan-ideas-and-expectations-of-women/).
68. İNSTİTUT Qeyd etmək lazımdır ki, Parlamentdə Qadın Deputatların Forumu fəaliyyət göstərir. Forum hansı partiya və fraksiyanı təmsil etməsindən asılı olmayaraq, qadın deputatları bir araya toplamaq məqsədilə yaradılmışdır. İşində siyasi hüquqların təşviqi və qərar qəbul etmənin bütün mərhələlərində iştirak sayının yüksəldilməsi kimi bir sıra məsələlər prioritet təşkil edir. Əlavə olaraq, Forumun gündəliyinə reproduktiv hüquqlar, ailədə zorakılıq, aliment, cinsi zorakılıq və gəlinlərin qaçırılması kimi məsələlər daxildir. Yerlərdə forumun iclasları həm yerli qadın aktivistlərin, həm də yerli keneşlərin deputatlarının işinin fəallaşmasına imkan yaratmışdır.

69. “Kişilər və qadınlar üçün bərabər hüquqlar və bərabər imkanlara dövlət təminatı haqqında” Qırğızıstan Respublikası Qanununda gender bərabərliyinə əməl olunmasının təmin edilməsinin institutional mexanizmi əks olunmuşdur. Hazırda gender siyasətinin həyata keçirilməsi və inkişafı üzrə səlahiyyətli orqan Qırğızıstan Respublikasının Əmək və Sosial İnkişaf Nazirliyidir. Həmçinin qeyd etmək lazımdır ki, Qırğızıstanın qadın təşkilatları müxtəlif istiqamətlər üzrə bir sıra qadın məsələlərinin həll edilməsini təşviq edir. Belə ki, Qadın Qanunvericilik Təşəbbüsü Alyansı bugün 140 QHT və fiziki şəxsi əhatə edir. Əsas məqsəd qanunvericilik təşəbbüslərinin lobbiləşdirilməsi ilə qərarların qəbul edilməsində qadınların təsirinin gücləndirilməsi və qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə milli siyasətin səmərəli həyata keçirilməsi üçün dövlət orqanları, yerli idarəetmə orqanları və vətəndaş cəmiyyəti arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsidir. Qırğızıstan müstəqilliyin əldə edilməsindən sonra, həmçinin vətəndaş cəmiyyətinin inkişafı, demokratik institutların və QHT-lərin yaranmasını ehtiva edən demokratik inkişaf yolunu qarşısına məqsəd qoymuşdur.

Qırğızıstanda QHT-lərin əsas hissəsini sosial, iqtisadi, təhsil və xeyriyyə layihələri ilə məşğul olan təşkilatlar təşkil edir. “Qadınlara yardım mərkəzi”, “Qadın hüquqşünasların assosiasiyası”, “Milis qadınların assosiasiyası”, “Təhlükəsizlik sektoru qadınlarının assosiasiyası”, “Böhran mərkəzlərinin assosiasiyası”, “Vətəndaş cəmiyyəti dəstək mərkəzi”, “Əlil qadınlar assosiasiyası” kimi ictimai təşkilatlar Bişkek, Oş şəhərləri və ölkənin bütün yeddi əyalətində ailədə zorakılığa məruz qalma, gəlinlərin qaçırılması və qeydiyyatsız nikahlar kimi problemlərlə mübarizə apararaq qadınların fundamental hüquqlarının sosial müdafiəsi üzrə fəaliyyət göstərir. Dünyəvi və dini qurumlar üçün daxili və qadınların digər hüquqlarının pozulmasının cəmiyyətin birgə yaşayışını necə məhv etdiyini və beynəlxalq insan hüquqlarını pozduğunu vurğulayan tədris proqramları hazırlanır.

Xüsusilə, kənd təsərrüfatı məhsullarının emalı, sənətkarlıq və kənd turizmi kimi istiqamətlərdə qadınların kənd ərazilərində sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını fəallaşdıran “Sahibkar qadınların assosiasiyası”, “Sənətkarlara dəstək üzrə Mərkəzi Asiya Assosiasiyası” kimi qadın qeyri-kommersiya təşkilatları və birliklərini qeyd etmək zəruridir.

Yerli əhalini də iş yerləri ilə təmin etməklə getdikcə daha çox qadın kənddə kiçik və orta bizneslə məşğul olur. Pendir, mürəbbə, konserv, bal kimi heyvandarlıq və əkinçilik məhsullarının emalından yerli istehsalçılar tərəfindən alınan qida məhsulları yerli və xarici bazarlarda yüksək qiymətləndirilir, ekoloji hazırlanmış (ot, meyvə) yuyucu və kosmetika məhsullarına həm kənd və şəhər əhalisi, eləcə də turistlər arasında tələbat böyükdür. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üzrə yeni texnologiyalar öyrənilir, sənətkarlıq məhsullarının çeşidi hər il daha da artmaqdadır və hazırda milli geyim, interyer predmetləri, hədiyyəlik məhsullar və suvenirlər həm daxili, həm də xarici bazarda uğurla satılır. Qırğızıstanda kənd qonaq evləri şəbəkəsi beynəlxalq standartlara uyğun olması ilə bəyənilmiş və turistlər arasında məşhurdur.

## TÜRKİYƏ

70. Türkiyə davamlı inkişafa və BMT-nin Davamlı İnkişaf Məqsədlərinə böyük diqqət göstərir. Nazirliklər və agentliklər kimi ictimai qurumlar, əsasən gender bərabərliyi daxil olmaqla, BMT-nin Davamlı İnkişaf Məqsədlərinə istinad edirlər.

71. Gender bərabərliyi Türkiyənin Konstitusiyasında nəzərdə tutulur. Konstitusiyanın 10-cu maddəsinə görə "Cinsiyyətindən asılı olmayaraq hər kəs….qadın və kişi eləcə də bərabərliyin həyata keçirilməsində məsuliyyət daşıyır". Dövlət bu bərabərliyin həyata keçirilməsində məsuliyyət daşıyır ".

72. Türkiyə, önümüzdəki on ildə dünyanın 10 ən böyük iqtisadiyyatlarından biri olmağı hədəfləyir və Türkiyə iqtisadiyyatı 2023-cü ildə trilyon dollarlıq birliyə qatılacaqdır. Buna nail olmaq üçün Türkiyə gender bərabərliyi problemlərini geniş sosial-iqtisadi inkişaf hədəflərinə və gender bərabərliyinə, eləcə də qızların təhsilinə yardım məqsədilə yönəldir. Gender siyasətində Türkiyə, əsas prioritet məsələlər kimi ailə daxili şiddətin qarşısının alınması, gender məsələləri, ailə dəyərləri və insan kapitalının inkişaf etdirilməsi kimi məsələlərə yer verir.

73. 2016-2020 BMTİP-in Türkiyə Ölkə Proqramı Sənədində (ÖPS) BMTİP-in Strateji Plan və gender maarifləndirilməsi kimi bir yanaşma tətbiq edilir ki, bu da birbaşa əlaqəsi olmayan məsələlərdir. Burada yalnız bir hissə gender bərabərliyinə həsr edilib, amma bütün digər məsələlər ÖPS-nin nəticələrini əks etdirir. BMTİP Strateji Planına əsasən, Türkiyə üçün ÖPS qadınların əmək bazarında iştirakını, onların qərar qəbuletmə proseslərinə qoşulmasını və cinsi zorakılıqların aradan qaldırılmasını prioritetləşdirir.

### Türkiyədə qadın hüquqlarına ümumi tarixi nəzər

74. Türkiyədə qadın hüquqlarının mütərəqqi tarixi vardır. Türkiyədə qadınların hüququ öz köklərini 19-cu əsrdən bir sıra dövri nəşrlərin həyata keçirilməsindən götürür. 1868-ci ildə qadınlar və kişilərdən ibarət qarışıq heyətlə İstanbulda ilk qadın jurnalı (Tərəqqi/Terakki) nəşr olunmuşdur. Digər nəşrlərdən sonra, 1885-ci ildə yalnız qadınlar tərəfindən idarə olunan və işlədilən ilk jurnal İstanbulda (Güllər bağı / Şüküfezar) işıq üzü gördü. 20-ci əsrdə Türkiyədə qadın dərnəkləri ortaya çıxdı. Bir çox vətəndaş birliklərdən sonra, 1923-cü ildə, respublikanın qurulmasından bir neçə ay əvvəl, ilk feminist siyasi birliyi (qismən siyasi partiya və qismən qadın hüquqları təşkilatı) quruldu və 1935-ci ilə qədər fəaliyyət göstərdi.

75. 1926-cı ildə Türkiyə yeni Türk Mülki Qanununu qəbul etdi. Bu qanuna əsasən, qadın və kişilər üçün mülki hüququn bir çox aspektləri bərabərdir; miras, şahidlik, evlilik, boşanma, mülkiyyət hüququ və monoqamiyanın qadağan olunması kimi məsələlər müzakirə olunurdu. Digər mənfi cəhətləri aradan qaldırmaq məqsədilə islahatların bir çoxu bütün hüquq sahələrində bu günə qədər davam edir.

76. Türkiyə dünyada qadınların seçki hüququ - səs vermək və seçilmək haqqı qazandığı ilk ölkələrdən biridir: 1930-cu ildə yerli seçkilər və 1934-cü ildə ümumi seçkilər. Bu tarixlər Fransa, İtaliya, Belçika, Portuqaliya, Yunanıstan, Rumıniya, Yuqoslaviya, İsveçrə və s.bir çox Avropa ölkələrindən onilliklər əvvələ təsadüf edir; Həmçinin dünyanın ən böyük iqtisadi mərkəzlərindən olan Yaponiya, Çin, Hindistan və s. kimi ölkələr Türkiyədən 10 il sonra qadınların seçki hüququnu tanımışdır;

77. Türkiyə ilk qadın hökumət başçısı / baş naziri olan ölkələrdən biridir. 1993-cü ildə Tansu Çillər Türkiyənin ilk qadın qadın Baş naziri olmuş və 3 il müddətində fəaliyyət göstərmişdir. Eləcə də Türkiyə qadın Baş naziri olan 3-cü müsəlman ölkəsidir, həmçinin dünyada 15-ci, Avropada isə 8-cidir.

**Türkiyənin Gender siyasətinin müasir vəziyyəti**

78. Milli İnkişaf Strategiyası, Gender bərabərliyinə dair Milli Fəaliyyət Planı, Qadınlara qarşı Zorakılıq üzrə Milli Fəaliyyət Planı, Baş Nazirin Qadın məşğulluğunun artırılması və imkanların bərabərliyinə nail olunmasına dair əmri (2010) Türkiyənin gender siyasətinə dair ilkin plan və proqramlarıdır.

79. Türkiyənin gender siyasətinə aid olan əsas müəssisələr; Qanunvericilik baxımından Qadınlar və Kişilər üçün İmkan bərabərliyi üzrə Parlament Komitəsi, İcra baxımından Əmək, Sosial Siyasətlər və Ailə Nazirliyi, Ümumi müdirlik baxımından; Qadın Statusu Ümumi Müdirliyi, Ailə və Sosial Xidmətlər Ümumi Müdirliyi, Uşaq Xidmətləri Ümumi Müdirliyi, Ailə Məsləhət Mərkəzləri və Qadın sığınacaqlarıdır.

80. Qadınların və kişilərin bərabərliyi üzrə Parlament Komitəsi 2009-cu ildə qadın hüquqlarının qorunması və inkişafı və gender bərabərliyinin təmin edilməsi məqsədilə yaradılmışdır. Komitə qanunvericilik vəzifələrini yerinə yetirməklə yanaşı, müraciətləri qəbul edir, ictimai qurumlardan məlumat tələb etmək hüququna malikdir və komitənin fəaliyyəti ilə bağlı ictimai və akademik qurumların, vətəndaş birliklərinin işlərindən istifadə edə bilər. Komitə həmçinin gender bərabərliyi ilə bağlı məruzələr, icmallar və tövsiyələri dərc edir. Komitədə qadın parlamentarilərin prioritetləri mövcuddur.

81. Əmək, Sosial Siyasət və Ailə Nazirliyinin əsas məqsədləri fiziki şəxslər və ailənin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafa yardım etmək, işçi qüvvəsi və məşğulluğu təşviq etmək, sosial təhlükəsizlik sisteminin effektivliyini təmin etmək üçün sosial xidmətlərin göstərilməsini təmin etməkdir. Əmək, Sosial Siyasətlər və Ailə Nazirliyinin Qanunvericiliyi 26 qanun, qanun qüvvəsində olan 1 əmr, təxminən 600 digər qayda və protokollardan ibarətdir https://kms.kaysis.gov.tr/Home/kurum/24304011

82. Türkiyədə qadınlara dair insan kapitalı, xüsusilə də təhsili yaxşılaşdırmaq üçün çalışan digər qurumlar da vardır. 2010-cu il ərzində həm Təhsil Nazirliyi, həm

də Ali Təhsil İnstitutu təhsil və akademiyada maariflәndirilmənin artırılması, eləcə də gender bərabərliyinin təmin edilməsi ilə bağlı layihələr hazırlayıb həyata keçirmişlər.

84. Ailə məsələsində gender siyasətinin mövcud hüquqi əsasları Mülki Qanundur (22 noyabr 2001-ci ildə qəbul edilmişdir). 2003-cü ildə Mülki Məcəllənin ailə aspektləri və ailədaxili zorakılığın qurbanlarının müdafiəsi üçün ixtisaslaşmış 100 000-dən çox əhalisi olan bütün rayonlarda Ailə Məhkəmələr yaradılmışdır.

85. Mülki qanuna əsasən, nikahın əsas şərtləri cütlüklərin evlənməsinin tam və azad razılığıdır. Həm qadınlar, həm də kişilər üçün evlilik yaşı 17 dir. Qanuna görə 17 yaşını tamamlamayan oğlan və qız evlənə bilməz. Lakin müstəsna hallarda və vacib bir səbəblə, məhkəmə 16 yaşını tamamlayan qız və ya oğlana evlənmək üçün icazə verə bilər.

86. Digər tərəfdən, çoxarvadlılığının qarşısını almaq və qadınların nikahla bağlı hüquqlarını qorumaq məqsədilə dini nikahlar baş verməzdən əvvəl nikahlar mülki orqanlarda qeydə alınmalıdır. Qeydiyyatdan keçməmiş dini nikahların həyata keçirilməsi 1936-cı ildə edilmiş əlavəyə görə Cəza Qanununda cinayət olaraq təyin edilmişdir. Hazırkı sistemdə qeydiyyata alınmamış dini nikahların qarşısını almaq üçün vilayət və rayon din orqanları reyestr saxlayır və bu reyestri Mülki Qeydiyyat İdarəsinə (Nüfus Müdürlüğü) təqdim edir və Mülki Qeydiyyat İdarəsi onu təsdiq edir. Hazirkı Cəza qanununa görə çoxarvadlılıq 2 ilədək həbs müddəti ilə cəzalandırılır.

86. Türkiyədə qadınların tədqiqatları akademiyada yüksələn bir sahədir. 1989-cu ildə Türkiyədə qadın tədqiqatları üzrə ilk ixtisaslaşdırılmış tədqiqat institutu açılmışdır. 2018-ci ilin əvvəlinə qədər Türkiyədə 85 universitetdə qadın tədqiqat mərkəzlərinin sayı sürətlə artıb və qadın araşdırma mərkəzləri də mövcuddur.

**Təhsildə gender bərabərliyi**

87. Kənd yerlərinin, xüsusilə də qızların təhsilə keçidi problemləri ilə bağlı sualların cavablandırılması üçün Respublikanın yaranmasının ilk illərindən bir çox layihələr hazırlanmışdır. Bütün səylərə baxmayaraq, 2000-ci ildə oğlan və qızlar arasında ibtidai məktəblərə çıxmaq üçün boşluq 7% olmuşdur. Digər tərəfdən, bu boşluğu bağlamaq üçün Təhsil Nazirliyi və UNİCEF 2001-ci ildə 2003-cü ildə qüvvəyə minmiş birgə layihə hazırlamağa başladılar. Bu layihə ilə, təhsilə girişin yaxşılaşdırılması üçün Türkiyənin 53 vilayəti seçilmişdir. Layihənin ilk ilində, nəticə əlavə qızlar məktəbinə 40.000 oldu və 2005-ci ilin sonunda yekunlaşdı. Hökumət təhsil sahəsində yeni layihələr hazırlayaraq irəli sürdü. Belə hökumət layihələri bütün tələbələr üçün pulsuz təhsil materialları və süd, kənd mərkəzlərində pulsuz internat məktəbləri və uzaq kəndlərə şagirdlər üçün pulsuz gündəlik nəqliyyat xidməti təklif edir.

## Əmək sahəsində gender bərabərliyi

88. 2019-cu ilin ilk aylarında Türkiyə əhalisi 82 milyonu aşdı. Bu rəqəm müvəqqəti status altında olan qaçqınlara, xarici işçilərə və digər insanlara aid deyil. Müvəqqəti sakinlərin kütləsi (müvəqqəti və ya daimi) 90 milyona çatır. Türkiyənin işçi qüvvəsi (yerli və xarici daxil olmaqla) təxminən 35 milyondur. İşçi qüvvəsi olaraq qadınların / kişilərə nisbəti təxminən 1:2-dir. Ümumiyyətlə, bu, inkişaf etmiş ölkələrdən daha aşağı hesab edildiyi halda, qadınların Türkiyədəki yüksək statuslu işlərə qatılması daha aşağı statuslu işlərə nisbətən yüksəkdir. Məsələn, həkimlərin qadın / kişi nisbəti təxminən 2:3, alimlərin isə nisbəti 1: 1dir. Eyni zamanda qadınların əmək bazarına qatqısını təmin edən digər amillər də var.

89. Əmək bazarında gender bərabərliyi yalnız mənfi amillərdən deyil, həmçinin qadınlar üçün müsbət ayrı-seçkilik qaydalarından təsirlənir. Türkiyədəki qadınlar üçün bir çox hüquqi pozitiv ayrı-seçkiliyə əlavə olaraq, xüsusi imtiyazlar var. Məsələn, dul qadın rəhmətə getmış ərinin təqaüd və ya maaşının 75 %-ni yaş məhdudiyyəti olmadan dövlətdən yenidən ailə quracağı vaxta qədər ala bilir. (bu dul qadın maaşı kimi populyardır) Həmçinin, ailə qurmamış qız rəhmətə getmiş atasının təqaüd və ya əmək haqqının 50% -ni yaş məhdudiyyəti olmadan - bütün həyatı boyunca alır (hal-hazırda "yetim maaşı" olaraq bilinir). Bu müsbət ayrı-seçkilik müddəaları, qadınların rahatlığını təmin etdiyi halda, onların əmək sahələrinə qatılmasına mənfi təsir göstərir. Bu xüsusi yardımlar inkişaf etmiş ölkələrdə müstəsna haldır və mövcud deyil.

90. Türk hüququ bərabər iş üçün bərabər ödəniş təmin edir və praktiki olaraq bütün təhsil proqramları və peşələr qadınlara açıqdır.

91. 2001-ci ildə Türkiyədə yaşanan iqtisadi böhrandan sonra, işsizliyin artması kişilərə nisbətən qadınlara daha çox təsir etdi. Qadınların məşğulluq faizi kəskin şəkildə azaldı. Böhrandan sonra başlayan iqtisadi partlayış rəqəmləri böhrandan əvvəlki vəziyyətə gətirdi. Sabit iqtisadi artım qadınların iş gücünə olan töhfəsini artırmalıdır. Bu hal dərindən öyrənilməli olsa da, ənənəvi olaraq kişilər öz ailələri üzərində məsuliyyət sahibi olduğuna görə işəgötürənlər daha çox kişilərin işdə saxlanılmasını seçir. Mövcud Avropa və ya İngilis-Amerikan dəyərlərindən fərqli olaraq, Anadolu mədəniyyətində uzun müddətli işsizlik kişilər üçün eyib hesab olunur, bu səbəbdən də bəzən intihar halları qeydə alınır.

92. 2001-ci il böhranından sonra qadınlar üçün məşğulluq rəqəmlərinin artması ilə yanaşı, şəhər və kiçik regionlarda qadın sahibkarların sayının artması da müşahidə edilir. Hökumət, xüsusi banklar və beynəlxalq proqramlar vasitəsilə, Türkiyədə sahibkar qadınlar üçün çox sayda layihə inkişaf etdirilir və tətbiq olunur.

## Ailə dəyərləri və ailənin qorunması

93.Türkiyədə ənənəvi dəyərlərə görə ailə müqəddəs sayılır. Yeni nikah hər zaman qohumlar və valideynlər tərəfindən dəstəklənir, nikahın bitməsi isə adətən

arzuolunan deyil. Ailədə problemlər meydana gəldikdə geniş ailələrdə əsas tendensiya cütlüyə evliliyini sonlandırmaqdansa, möhkəmləndirməkdən ibarətdir. Ənənəvi Anadolu ailələrində nəsillər arası münasibətlər də mövcuddur. Gənc nəsillər həm anasına, həm də atasına və nənə və babalarına dərin ehtiram göstərirlər. Kənd yerlərində və bir qədər də böyük şəhərlərdə geniş ailələr tək bir evdə yaşayır. Lakin 1950-ci illərdən başlayaraq kənd yerlərindəki inkişafa və əmək hərəkətliliyinə paralel olaraq bir sıra şəhər yerlərində də geniş olmayan ailələr inkişaf edir.

94. Qərb ölkələrindən fərqli olaraq Türkiyədə valideynlik birgə tərbiyə ilə izah oluna bilmir. Hər iki valideynlərin işlədiyi ailələrdə nənə və baba, bəzən digər qohumlar könüllü olaraq kiçik yaşlılara gündəlik baxımı təmin edirlər. Şəhərlərdə gündəlik qayğı ilə məşğul olan mərkəzlər hələ də vardır. Ənənəvi olaraq Anadoluda qadınlar uşaqlarla bağlı daha çox məsuliyyətə malik olsalar da ataların bu uşaqların qayğısına qatqısı tədricən artmaqdadır. Eyni zamanda övladları himayəsində olan və onların qayğısına qalan bir çox tənha ata vardır.

95.Media, internet və video oyunlarının təsirləri Türkiyədə yayılmış bir narahatçılığa səbəb olan məsələlərdəndir. Bu sahədə nəzarətsizlik ailə dəyərlərinin pozulmağına və müxtəlif formalarda zorakılığın yayılmasına səbəb olur. Xüsusilə gənc nəsil bundan daha çox təsirlənir. Bu cür mənfi təsirlərə qarşı “təhlükəsiz internet” və “media savadlılığı” kimi kampaniyalar inkişaf etdirilir. 2007-ci ildən etibarən Media savadlılığı ilə bağlı dərslər orta məktəblərə təqdim olunur.

96. Məişət zorakılığının aradan qaldırılması üçün hakimlər və hüquq-mühafizə orqanlarına zabitlərə xüsusi təlimlər verilir. Son illərdə ailədaxili zorakılığı minimuma endirmək və qurbanları qorumaq üçün istismar olunan uşaqlar üçün 24 saat çağrı mütəxəssisləri, boşanma məsələləri nəzərdən keçirildiyi müddətdə müvəqqəti alimentin təyin edilməsi və s. kimi bir çox hökumət layihələri hazırlanmışdır.

97. 2018-ci ilin sentyabr ayından etibarən Türkiyədə 132 qadın sığınacağı vardır.

## Nəticə

98. TÜRKPA-nın dörd ölkəsinin qanunvericiliyi gender bərabərliyi qlobal kontekstində olduqca mütərəqqi və inkişaf etmiş görünür. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə BMT-nin Davamlı Məqsədlərində iştirakını bildirmək üçün milli qanunvericiliyin və strateji proqramların tam sənəd paketini nümayiş etdirirlər. Lakin bir çox ölkələrdə olduğu kimi bu sahədə milli qanunvericiliklərdə boşluqlar vardır.

99. Mədəniyyət, ənənələr, ailə və dini mənsubiyyətlər bir çox hallarda rəsmi qanunlardan üstün olur. TÜRKPA-nın bütün üzv ölkələrində ailələrdə kişilərin rolu daha çoxdur. 18 yaşından sonra valideynlər və uşaqlar arasındakı sıx əlaqələr,

böyüklərə hörmət kimi stereotiplər hələ də vardır. TÜRKPA üzv ölkələrindəki gənclərin 75-80 faizi valideyn tövsiyəsinə diqqət yetirir və onlara hörmət edir.

100.Hər bir ölkədə ailənin mədəni kimliyinin öz həssas və çətin tərəfləri vardır.

101.Gənclər arasında demoqrafik problemləri və intiharın necə azaldılması, boşanma sonrası qadın hüquqlarını necə qorunması, qadınların və gəlinlərin qətlə yetirilməsi, qaçırılması, təcavüz edilməsi, spirtli içki problemlərinin necə azaldılması hələ də aydın deyil.

102.Qadınlarının məşğulluq səviyyəsinin 25 % olmasına baxmayaraq, onlar ailədaxili şiddət hadisələrində öz hüquqlarını daha yaxşı istifadə edə bilirlər. Bəzi cəmiyyətlərdə qadınlar bu cür şiddət hadisələrini polis və ya rəsmi orqanlara bəyan etməməyi üstün tuturlar və daxili ailə hüdudlarında işlərin gizlənməsini daha məqsədə müvafiq hesab edirlər. Qurbanlar ümumiyyətlə həyati təhlükəli nəticələr olduqda hadisələri aşkara çıxarır.

103.Belə görünür ki, qadınlar ailə büdcəsinə onların həyat yoldaşları kimi  kömək edə biləcəyinə əmin deyillər.

104.Ailə yalnız bir insanın bütün həyat dövrü ilə müşayiət olunan ən mühüm qrup deyil, həm də cəmiyyətin sabit və davamlı inkişafı və dövlətin rifahı üçün şəraitdir. O, yenidənqurma, təhsil, müxtəlifləşdirilmiş sosiallaşma, ənənələrin köçürülməsi, etnik mədəniyyət ənənələrinin qorunması ilə bağlı çoxlu funksiyaları yerinə yetirir. Ailənin hər iki üzvü güclü olduqca, cəmiyyət də güclü olur. Ailənin iqtisadiyyatı nə qədər güclü olarsa, cəmiyyət o də o qədər inkişaf etmiş və güclü olar.

105.Bütün dörd mədəniyyət qadınların özünü qiymətləndirməsi üçün daha qoruyucu olmalıdır. Hər hansı bir zorakılıq (fiziki və mənəvi) insanların zehnindən silinməlidir. Spirtli içkilər ailələrdən (xüsusilə uşaqların qarşısında) xaric edilməlidir.

106.Bundan başqa, qadınların daxili və ictimai vəzifələri tez-tez ziddiyyət təşkil edir. Bir tərəfdən qadınların işsizliyi və ya gəlir gətirən iş yerindən evdə oturmaqla imtina etməsi ümumi ailə gəlirini əhəmiyyətli dərəcədə azaldır. Digər tərəfdən isə qadınların normadan artıq işləməsi qadın reproduktivliyinin azalmasına təsir edən əsas amillərdən biridir.

107.Bəzi ailələr digər dillərdən daha çox öz dillərinə hörmət nümayiş etdirir. Ana dilinə olan hörmət təhsil nazirlikləri vasitəsilə hökumət tərəfindən daha çox peşəkar səviyyədə diqqətə ehtiyac duyur.

108.Çox ailələrin uşaqlarının rus və ingilis dilli uşaq bağçasına verməsinin səbəbi uşaqlar üçün daha maraqlı və intellektual inkişaf üsullarının istifadə olunmasıdır. Bəzi ailələrdə isə ənənəvi olaraq uşaqlar bir küncdə rahat oturaraq oynayırlar.

109.Məktəblərdə çox yayılan şiddət halları ciddi məsələ hesab edilir və TÜRKPA üzvü olan ölkələr də bu məsələyə diqqət yetirməlidirlər.

110.Qadınlara və uşaqlara qarşı zorakılıq onların özünü qiymətləndirməsinə neqativ təsir göstərir. Özünü qiymətləndirməsi aşağı olan bir şəxs psixoloji cəhətdən həssas olur. Ailənin sağlamlığı hər bir ailə üzvünün özünü qiymətləndirməsinin yüksək olmasından aslıdır.

111.Yeniyetmələrin intihar hallarında ölkələr kütləvi informasiya və sosial şəbəkələr vasitəsilə böyük ictimai təcrübəni tətbiq etməlidirlər. Bəzi ölkələrdə bu cür hallar polisə aid sənədlərdə qeydə alınır və yalnız ictimai məsuliyyətə cəlb olunmadan yaxınları və ailə arasında saxlanılır.